

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 157 (23.319)**

***24 avqust 2019-cu il, şənbə***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


## Muxtar respublikada aparılan miqrasiya siyasəti turizmin də inkişafında mühüm rol oynayır

*Hərtərəfli və dayanıqlı iqtisadi inkişaf, sosial cəlbedicilik, məşğulluq və yoxsulluğun azaldılması, təbii ehtiyatlardan səmərəli istifadə, ətraf mühitin mühafizəsi, mədəni dəyərlər və təhlükəsizlik turizmdə mühüm məsələlərdən hesab edilir. Bütün bu amillər Naxçıvan Muxtar Respublikasında da turizmin inkişafında prioritet istiqamət kimi götürülüb.*



Turizmin inkişaf etdirilməsi isə muxtar respublikada aparılan miqrasiya siyasəti ilə sıx bağlıdır. Bu məqsədlə də Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti işini günün tələbləri səviyyəsində qurmaqla fəaliyyətini gücləndirib və bu istiqamətdə işin təşkilinə diqqəti artırıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı" Dövlət Miqrasiya Xidmətinin də üzərinə bir sıra öhdəliklər qoyub, vəzifələr müəyyənləşdirib. Xidmət tərəfindən həmin vəzifələrin icrası istiqamətində silsilə tədbirlər həyata keçirilir. Belə ki, turizm sektorunun inkişafı üçün muxtar respublikada əlverişli mühitin formalaşması məqsədilə sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi, sərhəd-buraxılış məntəqələrində sürətli keçidin təmin edilməsi üçün zəruri addımlar atılıb.

Fərəhli haldır ki, bu gün Dövlət Miqrasiya Xidməti üçün konkret sahələr üzrə 9 xidmət növü müəyyənləşdirilib. Artıq bu sahələr əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, eyni zamanda Azərbaycan Respublikası vətəndaşlarının istifadəsinə verilib. Həmin xidmət növləri, əsasən, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyatı, müvəqqəti və daimi yaşaması, müvəqqəti olma müddətinin, iş icazələrinin verilməsi və müddətlərinin uzadılması, miqrasiya orqanlarına işə qəbul, dövlət rüsumlarının və cərimələrin onlayn ödənilməsi ilə bağlı sahələri əhatə edir.

Bu gün qədim diyarımızda turizmin inkişafı və yay turizm mövsümü ilə əlaqədar turistlərin axını xüsusilə sərhəd-buraxılış məntəqələrində miqrasiya bölmələrinin məsuliyyətini daha da artırıb. Bunun nəticəsi olaraq muxtar respublikamıza gələnlərə nümunəvi miqrasiya xidməti göstərilir, turistlərə köməklik edilməklə vaxt itkisinin qarşısı alınır. Diyarımıza təşrif buyuran qonaqlar əgər muxtar respublikamızda müvəqqəti olmaları haqqında dəqiq məlumatlara sahib deyillərsə, miqrasiya bölmələrində elektron məlumat köşkləri vasitəsilə lazımi məlumatları əldə edə bilirlər. Dövlət Miqrasiya Xidmətinin əməkdaşları sərhəd-buraxılış məntəqələrinin miqrasiya bölmələrində xarici ölkə vətəndaşlarının həm sənədlərinin yoxlanılmasında, həm də onlarla dialoqda etik davranış qaydalarına ciddi əməl edirlər. Burada əcnəbilərin olduğu yer üzrə qeydiyyata alınması onların əlavə məsafə qət etməsinin və xərc çəkməsinin qarşısını alır. Miqrasiya bölmələrinin fəaliyyəti muxtar respublikada yaşayan əcnəbilərin rahatlığı üçün atılmış növbəti addımın əyani göstəricisidir.

Sərhəd-buraxılış məntəqələrinin fəaliyyəti yüksək səviyyədə təşkil olunmaqla Vahid Miqrasiya Məlumat Sistemi vasitəsilə xarici ölkə vətəndaşlarının Dövlət Miqrasiya Xidmətinə gəlmədən olduğu yer üzrə qeydiyyata alınma prosesinin operativliyi artırılıb. Bunun nəticəsidir ki, cari ilin I yarım ili ərzində sərhəd-buraxılış məntəqələrinin miqrasiya bölmələri tərəfindən 950-yə yaxın əcnəbi olduğu yer üzrə qeydiyyata alınıb.

Fərəh hissi ilə deyə bilərik ki, Naxçıvan yurdumuza üz tutan qonaqların diqqətini ildən-ilə daha çox cəlb edir. Rəsmi olaraq əldə olunan statistik rəqəmlər də bunu deməyə əsas verir. Belə ki, 2019-cu ilin I yarım ili ərzində muxtar respublikamıza 196 min 474 nəfər turist gəlib ki, bu da 2018-ci ilin birinci yarım ili ilə müqayisədə 0,3 faiz çoxdur.

Əlbəttə ki, muxtar respublikamıza gələn turistlərin rahatlığı, istirahətlərinin yaxşı təmin olunması, həmçinin asudə vaxtlarının səmərəli keçməsi nə qədər əhəmiyyət kəsb edirsə, onların hüquq və azadlıqları, vəzifələri, eyni zamanda səfər etdikləri diyarla bağlı məlumatlı olmaları da bir o qədər diqqət mərkəzindədir.

Dövlət Miqrasiya Xidmətinin qanunvericiliyə uyğun olaraq öz vəzifə səlahiyyətlərini həyata keçirməsində əcnəbi və vətəndaşlığı olmayan şəxslərin maarifləndirilməsi prioritet yer tutur. Ölkə vətəndaşlarına, o cümlədən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə elektron xidmətlərin göstərilməsi zamanı 202 Miqrasiya Məlumat Mərkəzinin rolunu xüsusi vurğulmaq lazımdır. Mərkəz vətəndaş məmnunluğunun və qanunçuluğun təmin edilməsi, müraciətlərin obyektiv araşdırılması və cavablandırılması, sui-istifadə əməllərinin qarşısının alınması, xidmətin fəaliyyətinin təkmilləşdirilməsi üçün daxil olmuş müraciətlər əsasında təhlillərin aparılması məqsədilə təşkil olunub.

Bu gün muxtar respublikamızda turizmin təbliği məqsədilə görülən işlər arasında Dövlət Miqrasiya Xidmətinin rəsmi saytı xüsusi yer tutur. Belə ki, cari ilin əvvəlində tamamilə yenilənərək həm funksionallıq, həm də dizayn baxımından müasirləşdirilən və zamanın tələbinə uyğunlaşdırılan xidmətin rəsmi internet saytının daha çox əcnəbilər tərəfindən istifadəsi nəzərə alınaraq *www.migration.nmr.az* adı ilə də fəaliyyəti təmin edilib. Məlum olduğu kimi, əcnəbilərin ingilis dilinə üstünlük verməsi və saytın ikinci adının elə həmin dildə fəaliyyət göstərməsi istifadəçilərin işini daha da asanlaşdırıb. Bu gün muxtar respublikamıza gəlmək, qədim yurd yerini görmək arzusunda olan qonaqlar artıq buraya gəlmədən əvvəl istər miqrasiya qanunvericiliyi ilə bağlı, istərsə də diyarımızın turizm potensialını əks etdirən məlumatları ingilis dilində ala bilirlər. Həyata keçirilən bu cür maarifləndirmə işləri onu göstərir ki, elektron xidmətlər birbaşa onların rahatlığı üçün düşünülüb.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmiz uğurla inkişaf edir, dünyada söz sahibi olan, güclü iqtisadiyyata və qüdrətli orduya malik bir dövlət kimi tanınır. Bu qüdrətli dövlətin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da ulu öndərimizin ideyalarının dönmədən həyata keçirilməsi nəticəsində əsl inkişafa qovuşub. Ölkə Prezidenti cənab İlham Əliyev bu barədə deyib: ***"...Bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bir daha qeyd etmək istəyirəm ki, siz bütün məsələləri – quruculuq, abadlıq işlərini, enerji təhlükəsizliyi, hərbi potensial, infrastruktur layihələrinin icrası, ərzaq təhlükəsizliyi məsələlərini həll etmisiniz. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır".***

*Bu gün miqrasiya proseslərinin beynəlxalq hüquq normalarına uyğun olaraq tənzimlənməsi və günün tələblərinə uyğun aparılması, miqrasiya prosesləri üzərində dövlət nəzarətinin gücləndirilməsi, turistlərin rahatlığının təmin edilməsi istiqamətində görülən işlərlə Dövlət Miqrasiya Xidməti də turizm sahəsinə öz töhfəsini verməyə çalışır.*

**Arif BAYRAMOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşı***

## Sənətkarlarla görüş olub

*Dünən Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən sənətkarlarla görüş keçirilib.*



"2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası məqsədilə keçirilən tədbiri Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev açaraq bildirib ki, Naxçıvanda özəl sektorun əsas istiqamətlərindən biri olan turizmin inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Ötən dövrdə sənətkarlar tərəfindən muxtar respublikanın tarixi-memarlıq abidələrini, milli arqumentləri özündə əks etdirən sənət sahələri üzrə 13 min manat dəyərində 722 əl işi və sənət əsəri hazırlanıb, satış üçün Naxçıvan Biznes Mərkəzinin satış obyektlərinə yönəldilib.

Diqqətə çatdırılıb ki, ötən müddət ərzində bir sıra xarici ölkələrin nümayəndələri ilə keçirilmiş 48 beynəlxalq tədbirdə muxtar respublikadan 256 sahibkarlıq subyektinin 263 nümayəndəsinin iştirakı təmin edilib və muxtar respublikanın turizm potensialı haqqında xarici iş adamlarına və həmin ölkələrin rəsmilərinə məlumat verilib, turizm mütəxəssisləri arasında təcrübə mübadiləsi aparılıb.

Vurğulanıb ki, kənd turizminin inkişaf etdirilməsində, kənd yerlərində kiçik sahibkarlığın inkişafında ailə təsərrüfatlarının mühüm rolu vardır. Ötən dövr ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən 46 ailə təsərrüfatına 710 min manatdan çox dövlət maliyyə dəstəyinin göstərilməsi təsərrüfatların fəaliyyətinin genişləndirilməsinə stimul olub, ailə təsərrüfatlarından bir hissəsinin kiçik sahibkarlıq subyektinə çevrilməsinə şərait yaradıb. Digər tərəfdən "Ailə təsərrüfatı məhsulları" festivallarının keçirilməsi belə təsərrüfatların fəaliyyətlərinin stimullaşdırılması ilə yanaşı, muxtar respublikamızda turizm imkanlarının təbliğində də mühüm rol oynayıb.

Diqqətə çatdırılıb ki, muxtar respublikanın sosial-iqtisadi inkişafı sahəsində atılan addımlar, öz növbəsində, turistlərin sayının artmasına, sənətkarlıq nümunələri və suvenirlər bazarının canlanmasına səbəb olub. Bu məqsədlə sənətkarlar hazırladıqları əl işlərində marketinq sahəsində müasir, innovativ üsulların istifadəsinə xüsusi fikir verməlidirlər. Belə ki, əl işləri turistlər üçün cəlbedici, qiymətləri münasib olmalı, toxunan xalçaların incə və kənarlarının düz olmasına xüsusi diqqət yetirməli, xalçaların üzərində Naxçıvanı tanıdan çeşidli milli ornametlərdən və digər təsvirlərdən istifadə edilməli, hazırlanmış suvenirlər kiçikhəcmli və daşınması asan olmalı, bir sözlə, əl işləri keyfiyyəti və cəlbediciliyi ilə seçilməlidir. Həmin əl işlərinin daha asan reallaşdırılması məqsədilə sənətkarlar Naxçıvan Biznes Mərkəzinin imkanlarından istifadə edə bilərlər.

Nazir sahibkarlığın inkişafı üçün yaradılmış şəraitə, göstərilən hərtərəfli qayğıya görə muxtar respublika sahibkarları və sənətkarları adından Ali Məclisin Sədrinə minnətdarlığını ifadə edib.

Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru Əkbər Novruzov çıxış edərək bildirib ki, "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın müvafiq bəndlərinə əsasən müxtəlif sənətkarlıq nümunələrinin təşviqi üçün turistlərin məlumatlılığının artırılması ilkin prioritetlərdəndir. Bu əl işlərinin sərgi-satışının təşkili isə sənətkarlığın inkişafına mühüm töhfədir.

Qeyd edilib ki, sənətkarlarımız hazırladıqları əl işlərinin fotoşəkillərini Naxçıvan Muxtar Respublikası Turizm Departamentinə təqdim etməklə doğma diyarımızın tanıdılması işinə öz töhfələrini verə bilərlər.

Sonra Sahibkarlığın İnkişafı Fondu publik-hüquqi şəxsin idarə heyətinin sədri Seymur Cəfərov, sənətkar Akif Həsənov çıxış ediblər.

Sonda muxtar respublikada fəaliyyət göstərən sənətkarların fikirləri dinlənilib.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Seminar-müşavirə keçirilib



Şərur Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı" 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq Şərur və Sədərək rayonlarında fəaliyyət göstərən ailə təsərrüfatçılarının iştirakı ilə seminar-müşavirə keçirilib.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı, İqtisadiyyat nazirliklərinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin, AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun və Şərur Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə İcra Hakimiyyəti başçısının müavini Anar Zeynalov açıb. Bildirib ki, "Ailə təsərrüfatları ili"ndə görülən çoxşaxəli tədbirlər Şərur rayonundakı belə təsərrüfatların da inkişafına böyük stimul olub, bölgədə yeni təsərrüfatların formalaşmasına geniş imkanlar açıb. Rayon ərazisində 5 hektar sahədə yer fıstığı və 1,2 hektarda qızılgül əkini aparılıb, bu istiqamətdə işlər gələcəkdə də davam etdiriləcək.

Qeyd edilib ki, ötən dövr ərzində rayonda ailə təsərrüfatçılarına öz təsərrüfatlarını genişləndirmək üçün 61 min 600 manat kredit verilib. Eyni zamanda hüquqi və fiziki şəxslərə 1 milyon 419 min 100 manat dəyərində 71 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlığı lizinq yolu ilə güzəştli şərtlərlə satılıb.

Aparılan məqsədyönlü tədbirlər nəticəsində cari ildə rayonda ailə təsərrüfatlarının sayı 115-ə çatıb. Keçirilən festivallarda rayondakı ailə təsərrüfatları tərəfindən istehsal edilən məhsullar yüksək səviyyədə nümayiş olunur. Ötən il keçirilən "Ailə təsərrüfatı məhsulları" festivalına rayonun 84 ailə təsərrüfatçısının iştirakı ilə 221 növdə 6 minə yaxın qablaşdırılmış məhsul çıxarılıb. Bu, növbəti tədbirlərdə məhsul sayının artacağına əminlik vardır.

Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Xaliq Abbasov, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin əməkdaşı Oqtay Məmmədov, İqtisadiyyat Nazirliyinin əməkdaşı İsa Novruzov, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin əməkdaşı Əli Şərifov və aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Loğman Bayramov çıxış ediblər.

Sonra suallar cavablandırılıb.

**✍ Nail ƏSGƏROV**

# Keyfiyyətli toxum məhsul bolluğu yaradır

*Günün istənilən saatında şəhərimizin hüsnünə yaraşıq verən rəngbərəng vitrinlərlə bəzənən marketlərə üz tutub səliqə ilə yığılmış tər çörəklərdən istədiyimiz qədər ala bilirik. Çörəyimiz bol olduğu üçün, necə deyərlər, evə əlidolu, üzüağ gedirik. Daha nə saatlarla çörək növbəsi gözləyən var, nə də ki "marketdə çörək qurtarıb, gərək bir-iki saatdan sonra yenə gedim görüm tapa bilərəm?" – deyən. Elə süfrə başında da tez-tez böyüklərin keçmişin acı xatirələrini yada salaraq: "İlahi, bizi bir daha çörəklə imtahana çəkmə", – deməsi, o illərdə yaşananlar barədə edilən söhbətlər firavan, əmin-amanlıq, bolluq içində yaşadığımız bugünkü dövrün necə qiymətli olduğunu biz gənc nəslə aşılayır...*

Təbii ki, çörəyin hasilə gəlməsi düşündüyümüz qədər də asan deyil. Taxılın əkilməsi, becərilməsi, yığılması, dəyirmanda üyüdülərək un halına salınması, bişirilərək marketə gətirilməsinə qədərki prosesi incələsək, bu işin necə böyük zəhmət tələb etdiyini görərik. Ancaq muxtar respublikamızda aparılan məqsədyönlü tədbirlər nəticəsində ilbəil bu proses daha da asanlaşır, insanlara rahat işləməsi, məhsul bolluğu üçün hərtərəfli şərait yaradılır. Torpaq mülkiyyətçilərinin müasir kənd təsərrüfatı texnikaları, mineral gübrələr və müasir suvarma sistemləri ilə təmin olunması, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərə güzəştli kreditlərin verilməsi, eyni zamanda dövlətimiz tərəfindən ayrılmış yardımlar aqrar sahənin davamlı inkişafına yol açır. Sistemli şəkildə həyata keçirilən kompleks islahatlar sahibkar-torpaq münasibətlərinin elmi əsaslarla müasir təsərrüfatçılıq formasında inkişaf etdirilməsini reallaşdırır, bu isə məhsuldarlığın yüksəlməsinə səbəb olur. Təsadüfi deyil ki, artıq son bir neçə ildir, muxtar respublika sakinlərinin əksər kənd təsərrüfatı məhsullarına olan tələbatı daxili istehsal hesabına ödənilir.

Kənd təsərrüfatının aparıcı sahəsi sayılan taxılçılığın inkişafı istiqamətində görülən məqsədyönlü tədbirlərin bəhrəsini builki biçin kampaniyasının nəticələrini əks etdirən statistik göstəricilərdə də aydın görmək mümkündür. Belə ki, 2019-cu ilin məhsulu üçün əkilmiş 33 min 308 hektar taxıl sahəsindən 102 min 984 ton məhsul tədarük edilib, məhsuldarlıq orta hesabla hər hektardan 30,9 sentner olub.

Təbii ki, əkinçilikdə, xüsusilə dənli taxıl bitkilərinin məhsuldarlığının yüksəldilməsində başlıca amillərdən biri keyfiyyətli toxumla əkin aparılmasıdır. Bu məqsədlə kondisiyalı toxum yetişdirilməsi mühüm şərtdir. Muxtar respublikada taxılçılıqla məşğul olan sahibkarları keyfiyyətli toxumla təmin etmək üçün "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti və Akademik Həsən Əliyev adına "Araz" Elm-



İstehsalat Birliyinin yardımçı təsərrüfatı fəaliyyət göstərir.

Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında verilmiş tapşırıqlarla əlaqədar 2019-cu ildə muxtar respublikada payızlıq taxıl əkinlərinin aqrotexniki qaydalara uyğun aparılması və hazırlıq işlərinə dair avqustun 16-da müşavirə keçirilib. Müşavirədə qeyd olunub ki, payızlıq taxıl əkininin aparılması üçün muxtar respublikanın torpaq mülkiyyətçilərinə 5000-5500 ton toxum tələb olunur. Bunun üçün "Bərəkət Toxumçuluq" Təsərrüfatında 600 ton, Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin yardımçı təsərrüfatında isə 100 ton yüksəkkeyfiyyətli buğda və arpa toxumları mövcuddur. Yerli təsərrüfat sahibləri də özləri üçün toxum ehtiyatı tədarük ediblər. Bundan əlavə, ölkəmizdəki digər toxumçuluq təsərrüfatlarından muxtar respublikanın torpaq-iqlim şəraitinə uyğun elit və 1-ci reproduksiyalı buğda və arpa toxumları gətiriləcək. Tədbirdə muxtar respublikada fəaliyyət göstərən toxumçuluq təsərrüfatlarının qarşısında bir sıra vəzifələr qoyulub. Həmin tapşırıqların icra vəziyyətini öyrənmək üçün "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinə yollandıq, iş prosesi ilə tanış olduq.

Öyrəndik ki, 2017-ci il aprelin 4-də yaradılan cəmiyyətin ötən dövr ərzində maddi-texniki bazası xeyli möhkəmləndirilib və intensiv metodların tətbiqi hesabına həmin təsərrüfatda yüksəkkeyfiyyətli məhsuldar toxum sortlarının yetişdirilməsi həyata keçirilir. Hazırda təsərrüfatın 2000 hektar torpaq sahəsi, 6 kombaynı, 5 traktoru, 5 toxumtəmizləyən aqreqatı olmaqla, ümumilikdə, 36 adda 86 texnika və avadanlığı vardır.

"Bərəkət Toxumçuluq" MMC-nin direktoru Cəfər Müzəffərov deyir ki, bu gün muxtar respublikada kənd təsərrüfatı sahələrinin, xüsusilə də əkinçiliyin inkişaf etdirilməsi, yüksək məhsul əldə olunması, yeni toxum sortlarının yaradılması qarşıya



qoyulan əsas vəzifələrdəndir. Təbii ki, münbit torpaq və sağlam toxum olanda, necə deyərlər, əkinçilərin əli boşda qalmır, yüksək və keyfiyyətli məhsul istehsalına nail olurlar. Sevindirici haldır ki, toxumçuluq təsərrüfatları ilə yanaşı, ayrı-ayrı torpaq sahibləri də toxumçuluğun inkişafında fəallıq göstərir, nəticədə, son dövrlərdə fərdi təsərrüfatlarda da keyfiyyətli toxum sortları yetişdirilməsinə nail olunur. Bildiyimiz kimi, məhsuldar toxumun əldə olunmasında aqrotexniki qulluğun göstərilməsi ilə bərabər, əkinlərin vaxtlı-vaxtında suvarılması da əsas şərtdir.

Ötən dövr ərzində "Bərəkət Toxumçuluq" Təsərrüfatının fəaliyyətini genişləndirməsi, burada əkinlərin yüksək səviyyədə keçirilməsi və istehsal olunan məhsulun keyfiyyətli toxum materialına çevrilməsi üçün 1023 hektar sahədə qapalı suvarma sistemləri tikilib istifadəyə verilib. Təsərrüfatda keyfiyyətli və yüksək məhsuldarlığa malik toxumlar tədarük etmək üçün əkinlər şırım üsulu ilə aparılır. Bu üsulun üstün cəhətləri çoxdur. Belə ki, şırım üsulu ilə suvarılan torpaq yaxşı rütubətlənir, qaysaq əmələ gəlmir, torpağın strukturu yaxşı saxlanılır, su itkisinə yol verilmir, əkilən sahə quraqlığa qarşı davamlı olur. Əkinlərdə muxtar respublikanın torpaq-iqlim şəraitində sınaqdan keçirilmiş "Quality", "Qobustan", "Fatimə", "Qılçıqsız" buğda sortlarından istifadə olunur.

2018-ci ilin payızında təsərrüfatda 2019-cu ilin məhsulu üçün 1037 hektar torpaq sahəsində taxıl əkini aparılıb. Göstərilən yüksək aqrotexniki qulluq nəticəsində 2500 tona yaxın məhsul istehsal olunub, 600 ton toxum vim aqreqatından keçirilərək dərmanlanıb və toxum materialı paketlənərək satışa hazır edilib. Müqayisə üçün deyək ki, 2018-ci ilin məhsulu üçün 613 hektarda əkin aparılıb, 1284 tondan artıq məhsul tədarük edilib.

Göründüyü kimi, təsərrüfatın fəaliyyəti ilbəil genişlənir, məhsul istehsalının həcmi artır. Qarşıdakı illərdə təsərrüfata məxsus torpaq sahəsinin hamısında əkin apararaq məhsuldarlığın 6000 tona çatdırılması əsas məqsəddir. Hazırda 2020-ci ilin məhsulu üçün ayrılmış ərazinin 800 hektara yaxın hissəsində şum aparılıb, şumlama işləri, toxum təmizlənməsi və dərmanlanması tədbirləri uğurla həyata keçirilir.

Atalarımız haqlı olaraq deyiblər ki, güc birlikdədir, birlik olan yerdə bütün çətinliklərin öhdəsindən gəlmək mümkündür. Müşahidələrimizdən aydın olur ki, dövlətimizin "Bərəkət Toxumçuluq" MMC-də çalışan zəhmətsevər insanların səmərəli fəaliyyətləri üçün yaradılan əlverişli iş şəraiti onları birlik nümayiş etdirməyə, əl-ələ verib günügündən çiçəklənən muxtar respublikamızın inkişafına töhfələr verməyə sövq edir. Qazanılan nailiyyətlər isə el arasında deyilən bir kəlamı xatırladır: Birlik harada, dirilik də orada...

✍ **Nail ƏSGƏROV**

# Sahələrdən bol məhsul yığılır



Muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmin edilməsində özünəməxsus rolu olan Şərur rayonunda bu il kartof əkini sahələri 1094 hektara çatdırılıb. Kartof üçün münasib sahələrin seçilməsi, torpağın üzvi və mineral gübrələrlə zənginləşdirilməsi, şumun normal dərinlikdə aparılması, becərmə tədbirlərinin aqrotexniki tələblər səviyyəsində yerinə yetirilməsi nəticəsində fermerlər və torpaq mülkiyyətçiləri bol məhsul yetişdiriblər.

Hazırda kartof yığımının əsas dövrüdür. Verilən məlumata görə, bu günə kimi əkilən sahələrin yarısından çoxunun məhsulu yığılıb, hər hektardan orta hesabla 130 sentnerdən artıq kartof əldə edilib. İstehsal olunan məhsulun çox hissəsi rayonda mövcud olan soyuducu anbarlara tədarük olunub.

Ümumilikdə, bu il rayondakı suvarılan sahələrin 2 min hektara yaxını müxtəlif tərəvəz bitkiləri əkilmiş ərazilərdir. Kartof, xiyar, pomidor, bibər, soğan, sarımsaq və digər tərəvəzlər, həmçinin bostan məhsulları da yığılır.

Rayonda qarğıdalı bitkisinin də əkilib-becərilməsi üçün münasib torpaq-iqlim şəraiti mövcuddur. Əvvəlkilərdən fərqli olaraq artıq həm əkində, həm becərmə tədbirlərində, həm də yığımda əsas işlər texnikanın gücü ilə görüldüyündən qarğıdalı dəni istehsalı üçün xərclənən vəsait aşağı düşür, son nəticədə, gəlir yüksək olur. Bu da qarğıdalı əkini sahələrinin ildən-ilə genişlənməsinə marağı artırır.

Bu il müxtəlif kəndlərdə 700 hektardan çox dən üçün qarğıdalı əkilib. Artıq yamyaşıl qarğıdalı kolları yavaş-yavaş saralır. Bu isə o deməkdir ki, məhsul yetişir və yaxın həftələrdə yığıma başlanacaqdır. Bu işin vaxtında başa çatdırılması üçün nəzərdə tutulmuş biçin texnikası hazırlanıb.

Mütəxəssislərin gəldiyi qənaət belədir ki, hər hektardan orta hesabla 40-45 sentner qarğıdalı dəni götürmək mümkün olacaq.

**Elman MƏMMƏDOV**

*"Ailə təsərrüfatları ili" – 2019*

# Şaftalı bağları az sahədən yüksək gəlir əldə etməyə imkan verir

*Hər fəsildə barlı-bərəkətli meyvə bağları, təbiət gözəllikləri ilə cənnəti xatırladan yurdumuzun adla deyilən meyvələri təkcə respublikamızda deyil, ondan kənarda da məşhurdur. Yazın son aylarında göycə, ərik, yayın istisində şaftalı, üzüm yeşiklərə yığılıb ən şirin pay kimi qohuma, qardaşa göndərilir.*

Muxtar respublikamızın ən böyük bölgəsi olan Şərur isə digər meyvələri ilə yanaşı, həm də şaftalısı, hülüsü ilə tanınır. Hər il olduğu kimi, bu il də rayonun bərəkətli torpaqlarında bitən ağaclardan şaftalı, şələli, hülü toplanıb uzaq rayonlarda həmyerlilərimizin süfrələrinin bəzəyinə, bu sahə ilə məşğul olanların isə qazanc mənbəyinə çevrilir.

Rayonda bu meyvəni əkib-becərənlər çoxdur. Şaftalı daha çox Aşağı və Yuxarı Daşarx, Danyeri, Oğuz, Xanlıqlar, Zeyvə, Düdəngə, Mahmudkənd, Siyaqut kəndlərində yetişdirilir. Rayonda şaftalı bağlarının sahəsi ilbəil daha da genişləndirilir. Artıq bir neçə müddətdir ki, məhsul yığılır. Naxçıvan-Sədərək yolundan keçənlər alyanaq meyvələrlə bəzənmiş şaftalı bağlarının seyrinə çıxmaqla yanaşı, yolboyu istədikləri təsərrüfatdan bu ətirli meyvədən də alıb, dadına baxa bilirlər.

Hazırda rayonun şaftalı bağlarında növbəti meyvə yığımını həyata keçirən bağbanlar məhsul bolluğundan razıdırlar. Dərəkənd sakini Muraz Məmmədzadə Yuxarı Daşarxda saldığı 2 hektar şaftalı bağında ailə üzvləri ilə birlikdə çalışır. Şaftalı bağları az sahədən yüksək gəlir əldə etməyə imkan verir. Bağda yaz, yay və payız aylarında yetişən yerli növlər mövcuddur. İndiyə kimi 2 hektar bağ-



dan 50 tondan artıq məhsul toplanılıb. Şaftalıya yerli bazarda böyük tələbat olduğundan satışında çətinlik yaranmır.

Ailə təsərrüfatı başçısı ilə söhbət zamanı şaftalının digər meyvələrlə müqayisədə daha çox qulluq tələb etdiyini bildirir:

– Bağdakı tinglərin növləri arasında "zəfəran" üstünlük təşkil edir. Bu növün qeyri-adi ətri var. Meyvənin iki çeşidi daha məşhurdur. Ağımtılı daha şirin, sarımtılı isə daha ətirli olur. Bol məhsul əldə etmək üçün ağaclara ilboyu qulluq lazımdır. Ağacların gövdəətrafı vaxtaşırı yumşaldılmalı, lazımi minerallar uyğun miqdarda verilməli, dərmanlama vaxtında aparılmalıdır. Bir sözlə, bu meyvənin nazını çəkməlisən ki, barını-bəhərini də görəsən. Ataların "Bağa baxarsan bağ olar, baxmazsan dağ olar" məsəli hər zaman özünü doğruldur.

Muraz onu da bildirir ki, əkib-becərdiyi bağdan hər il bol məhsul əldə etmək üçün daha məhsuldar və tələbat çox olan şaftalı növlərini artırır. Meyvəni, əsasən, yerli bazarlarda satır. Torpağa bağlı zəhmət adamı onu da əlavə etdi ki, rayonda şaftalının 50-dən çox növü becərilir. Bəzən tezyetişən şaftalı növləri çiçək açanda qeyri-sabit hava şəraitindən tozlanma prosesi pozulur. Bu il isə hava şəraiti bağbanların ürəyincədir. İl ruzili, barlı-bərəkətli olanda həm alıcı sevinir, həm də əkib-becərən.

Təsərrüfat sahibi uzun illərdir, bu meyvəni əkib-becərməsindən danışdıqca mövzu ilə bağlı araşdırmalar zamanı muxtar respublikamızda müxtəlif növləri yetişdirilən şaftalı meyvəsinin faydaları barədə əldə etdiyim məlumatları xatırlayıram.

Bu meyvəni ta qədimdən nənə-babalarımız uzunömürlülük və sağlamlıq rəmzi hesab ediblər. Şaftalı şirəsi ürək ritminin pozulması, qanazlığı, mədə-bağırsaq xəstəlikləri zamanı qəbul olunur. Dərini qidalandırır. Şaftalı bədxassəli şişlərin əmələ gəlməsinin qarşısını alan əla antioksidantdır. Onun tərkibindəki C vitamini orqanizmi virus və infeksiyalardan qoruyur, A vitamini itigörmə qabiliyyəti, gözlərin və selikli qişaların sağlamlığı üçün lazımdır, hemoqlobini yüksəldir, kalium ürək əzələlərini və damarların



divarlarını möhkəmləndirir. Bir şaftalıda cəmi 50 kilokalori enerji olsa da, uzun müddət toxluq hissi yaradır. Nahardan sonra da əla desert sayılır. Bu dadlı meyvə həm də əhvalı yaxşılaşdırır, yuxusuzluğu, depressiyanı aradan qaldırır. Zəngin B qrupu vitaminləri mənbəyidir. Yuxunu normallaşdırır, stresin öhdəsindən gəlməyə kömək edir.

Hər gün, yay-qış fərqi yoxdur, bağda ağaclara qulluq edib qayğısına qalan, əvəzində isə yaxşı məhsul götürən Muraz Məmmədzadənin – bu torpağa bağlı, zəhmətsevər insanın əməyi yazının əvvəlində xatırlatdığımız "Bağa baxarsan bağ olar..." məsəlinin heç də əbəs yerə deyilmədiyini bir daha təsdiqləyir. İnamla çalışıb, "Səndən hərəkət, məndən bərəkət" ümidi ilə ruzisini Tanrıdan diləyən bu halal torpaq adamından mən də "Zəhmətiniz hədər getməsin. Ruziniz bol, torpağınız bərəkətli olsun", – deyə ayrılıram.

✍ **Ramiyyə ƏKBƏROVA**

*Hər bir xalqın yaradıcılıq nümunələri onun tarixi taleyini, psixoloji xüsusiyyətlərini və həyat şəraitini özündə əks etdirir. Azərbaycan xalqının da tarixən özünəməxsusluğu ilə seçilən müxtəlif yaradıcılıq nümunələri olub ki, bunlardan biri də xalçalarımızdır. Azərbaycan xalçaları içərisində öz qədim tarixi, zəngin rəng çalarları və üzərində işlənmiş müxtəlif ornamentləri ilə seçilən Naxçıvan xalçaları xüsusi yer tutur. Həmin xalçaları tədqiq etməklə burada yaşayan insanların tarixi psixologiyası, onların xarakter xüsusiyyətləri və həyat şəraiti haqqında da mühüm məlumatlar əldə etmək mümkündür.*

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# NAXÇIVAN XALÇALARI

## milli etnopsixoloji xüsusiyyətlərimizin təsviri ilə də seçilir



Belə ki, Naxçıvan xalçalarında bu sənətin təşəkkül tapdığı *ilkin dövrlərdə* – İslam dininin Azərbaycanda qəbul olunmasından əvvəl daha çox qədim türklərə məxsus təsvirlər və naxışlar təsvir olunub. Bu naxış və təsvirlərdə qədim türklərə məxsus xüsusiyyətlərin əksi olduqca ustalıqla verilməklə yanaşı, həm də o dövr yerli əhalinin hansı xüsusiyyətlərə daha çox üstünlük verdiklərinin şahidi oluruq. Bunlar mərdlik, igidlik, birlik, insansevərlik kimi xüsusiyyətlərdir ki, bu xüsusiyyətlər günümüzdə də milli psixologiyamızda mühüm xarakterik keyfiyyətlər kimi qiymətləndirilir. Qədim türklər bu xüsusiyyətlərin rəmzi olaraq öz möhürlərində və bayraqlarında əksini tapan şəkillərdə – qoç başı, boz qurd, qartal və digər təsvirlərdə ifadə etməyə çalışıblar.

*İkinci dövr* İslam dininin Azərbaycanda qəbul edilməsindən sonrakı dövrə təsadüf etməklə bu zənginliyə İslam mədəniyyəti nümunələrinə aid təsvirlərin də əks olunması ilə səciyyələnir. Belə ki, həmin dövrlərdən başlayaraq daha çox mavi, sürmeyi, qırmızı rəngli kolorit həlli, naxışların bədii quruluş üslubu, günbəzlərin təsviri ilə İslam mədəniyyətini əks etdirən "Namazlıq" xalçaların daha çox toxunduğunun şahidi oluruq.

*Üçüncü dövr* rus imperiyasının Azərbaycanı işğal etməsindən sonra başlayır ki, keçmiş sovet rejiminin qadağaları bu sənətdə də müəyyən deformasiyaların yaranmasına səbəb olub. Həmin dövrün təsiri altında qədim türklərə aid, eyni zamanda İslam mədəniyyətini özündə əks etdirən təsvir və naxışlar da müəyyən mənada görünüşü dəyişdirilmiş şəkildə müxtəlif naxışların arasında gizlədilib, sanki mənası aydın olmayan naxışlara bənzədilib.

*Dördüncü dövr* müasir dövrümüzdür ki, bu dövrdə xalqımız öz müstəqilliyini təkrar bərpa etdi və bununla da bütün sahələrdə olduğu kimi, xalçaçılıqda da yeni milli inkişaf mərhələsi başladı.

Naxçıvan xalçalarının üzərindəki təsvirləri rənglərin xüsusiyyətləri və onların insan psixologiyasına təsiri məsələlərini nəzərə almaqla iki istiqamətdə psixoloji təhlilə cəlb etmək olar.

Həmin xalçaların üzərindəki təsvirlərə fikir versək, görərik ki, daha çox həndəsi, antropomorf, zoomorf, nəbati naxışlardan istifadə edilib.

Gəlin bu naxışların tarixi və psixoloji xüsusiyyətlərini tədqiq etməklə naxçıvanlıların xalçalarımızda gizlənən xarakter xüsusiyyətlərini açmağa çalışaq.

*Həndəsi fiqurlar.* Müasir psixologiya elmi sübut edir ki, insanların çəkdikləri həndəsi fiqurlara görə onların psixoloji xüsusiyyətləri haqqında məlumat vermək mümkündür. Bu elmi biliklərə əsaslanaraq demək





olar ki, Naxçıvan xalçaları üzərindəki konkret həndəsi fiqurlar bu xalçaları toxuyan insanların konkret adamlar olduğunun göstəricisidir.

Konkret adam dedikdə sözü ilə işi arasında heç bir ziddiyyət olmayan şəxslər başa düşülür. Cəmiyyətdə hər kəs ona inanır. Çünki o, verdiyi sözə əməl edir. Bu mənada, vaxtilə Qafqaza səyahət etmiş fransız səyyahı Aleksandr Düma ölkəsinə qayıtdıqdan sonra Qafqazda yaşayan millətlər haqqında yazaraq bildirirdi ki, azərbaycanlılardan sənəd almağa ehtiyac yoxdur, onlarda bir kişi sözü var. Onlar söz verdilərsə, qurtardı. Amma ermənilərdən sənəd alsan da, ehtiyatlı ol, sənəd də bəzən işə yaramır. Qədim türklərə məxsus olan bu keyfiyyətləri xalqımızın psixoloji xüsusiyyətlərində günümüzə qədər qorunub saxlanılır.

Eyni zamanda naxçıvanlıların xarakterində olan konkretlik onların yaşadıqları coğrafi mühit və iqlim şəraiti ilə də bağlıdır. Hamımıza məlumdur ki, Naxçıvanın çox kəskin coğrafi iqlim şəraiti var. Hər bir etnosun tarixi keçmişi ilə yanaşı, yaşadığı coğrafi şəraiti, iqlim xüsusiyyətləri onun şəxsiyyətinin əsas xüsusiyyətlərində, qabiliyyətlərində, yaradıcılıq ünsürlərində və məişətində öz əksini tapır. Bu mənada, kəskin kontinental iqlim şəraiti biz naxçıvanlıların xarakterlərində konkretlik kimi yüksək keyfiyyətləri formalaşdırmışdır ki, bunun nəticəsi olaraq Naxçıvan xalçalarında onların əks olunduğunu görürük.

*Antropomorf təsvirlər.* "Antropomorf" yunanca insana xas olan xassə və xüsusiyyətlərin xarici təbiət qüvvələrinə və başqa varlıqlara aid edilməsi mənasını verir. Naxçıvan xalçaları üzərində insana məxsus şəkillərin təsvir olunması məhz təbiətin ən ülvi və ali varlığının insan olması, qarşılıqlı münasibətlərin təcəssümü, dünyanı və kainatı dərketmənin insanın özünüdərki nəticəsində mümkünlüyü ismarıclarının gələcək nəsillərə ötürülməsi kimi də qiymətləndirmək mümkündür. Eyni zamanda Naxçıvan xalçaları üzərində qadın, uşaq, ailəni ümumilikdə təsvir edən şəkillərin olması burada yaşayan insanların psixologiyasında hələ çox qədim zamanlardan ailəyə bağlılıq, övlad sevgisi və qadına hörmətin üstün mövqedə olduğunu sübut edir.

*Zoomorf təsvirlər.* Bu təsvirlər adından da göründüyü kimi, qədim naxçıvanlıların məşğuliyyət və həyat şəraiti haqqında əsaslı məlumatlar verir. Naxçıvan xalçalarındakı zoomorf təsvirlər iki böyük qrupa bölünür: ev və yırtıcı heyvanlar. Onların içərisində isə ən çox təsadüf edilən qoç təsviridir. Bütün bunlar isə qədim naxçıvanlıların öz yaşam ehtiyaclarını heyvandarlıqla məşğul olaraq həmişə halal zəhmətlə gündəlik tələbatlarını ödədiklərinə işarədir. Ulu babalarımız "Halallıq olan yerdə hər zaman xeyir-bərəkət olar", – deyiblər.

Deməli, müasir dövrdə milli, eləcə də naxçıvanlı psixologiyasında özünü göstərən halallıqla nəyəsə nail olmaq, özgəsinin malına göz dikməmək, yalnız özünə deyil, ümumilikdə, bəşəriyyətə xeyir ver-





mək kimi gözəl xarakter xüsusiyyətlərin hələ qədim zamanlardan bəri daşıyıcıları olduğumuzu, əslində, xalçalarımızdakı təsvirlərdə açıq-aydın görmək mümkündür.

*Nəbati təsvirlər.* Nəbati təsvirlər xalçalardakı naxışların təbiətlə əlaqəsini birbaşa əks etdirir ki, bu da naxçıvanlılarda təbiəti sevmək kimi estetik hisslərin inkişaf səviyyəsinin əsas göstəricisidir. Belə ki, ictimai təcrübə əsasında dünyanı dərk edən naxçıvanlılar ətraf aləm haqqındakı estetik təsəvvürlərini məhz xalçalarda əks etdirməyə çalışıblar.

Xalçalarımızdakı füsunkar təbiət mənzərələri, yaşıl çəmənlər, güllü-çiçəkli yamaclar, şır-şır axan bulaqlar, aylı gecələr, quşların nəğməsi kimi ecazkar təsvirlər insanda estetik hisslər doğurur. Bu nəbati təsvirlər Naxçıvan təbiətinin zənginliyindən, gözəlliyindən xəbər verir ki, burada yaşayan insanlar bu təbiət zənginliyi içərisində mənəvi zənginliyin yüksək zirvəsinə çatıblar ki, bunları öz yaradıcılıq nümunələrinə köçürə biliblər. Naxçıvanlıların bu qabiliyyəti onların qədimdən günümüzə kimi gəlib çatan estetik duyumlarının və mənəvi zənginliklərinin göstəricisidir.

Yüksək estetik zövqə sahib olan naxçıvanlılar təbiətin gözəllik və rəngarəngliyini duyaraq oradakı rənglərdən bir-birinə bağlı şəkildə istifadə etməyə başlamışlar. Naxçıvan xalçalarındakı rənglərə nəzər salsaq, əsasən, *əlvan rənglərdən* istifadənin şahidi oluruq. Psixologiya elmi sübut edir ki, insan əlvan rənglərin əhatəsində olanda onda həyat enerjisini yüksəldən hisslərin yaranması baş verir. Bunun nəticəsində insan özünü daha yaxşı hiss edir. Onun psixoloji sağlamlığı bərpa olur, ətrafında baş verənlərə daha sağlam düşüncə ilə yanaşır, onlara obyektiv münasibət bəsləyir. Bütün bunlar isə şəxsiyyətlərarası münasibətlərin daha səmimi və işgüzar istiqamətdə formalaşması üçün əsas amil rolunu oynayır.

Naxçıvan xalçalarında istifadə olunan *ağ rəng*, əsasən, təmizlik, məsumluq, düzgünlük, səliqəlilik və aydınlıq rəngi kimi xarakterizə olunur. Xalçalarımızda bu rəngdən istifadə insanların xarakter əlamətlərində məhz həmin rəngin xarakterik cəhətlərinin çoxluğunun işarəsidir. Bunu bizim milli bayramımız olan Novruz bayramı adət və ənənələrində də görmək mümkündür.

*Yaşıl rəng* təbiətin əsas rənglərindən biri olub daha çox rahatlıq və sağlamlıq rəngi kimi qiymətləndirilir. İnsan yaşıl rəngin əhatəsində özünü olduqca sakit və rahat hiss edir. Eyni zamanda bu rəngi sevən insanlar prinsipiallıqları ilə də fərqlənirlər. Yəni onlarda xüsusi bir qələbə əzmi müşahidə olunur.

Naxçıvan xalçalarında rast gələnən *qırmızı rəng* həyat rəngi olmaqla yanaşı, həmçinin güc, dinamizm, mətanət, əzm və məhəbbət rəmzi kimi də götürülür.

*Mavi rəng* isə təbiətdə daha çox üstünlük təşkil edən rənglərdəndir. Həm psixologiyada, həm də el arasında məsumluq, dürüstlük, sülhsevərlik, firavanlıq, sakitlik deməkdir.

*Naxçıvan xalçalarındakı bu əlvan rənglər naxçıvanlıların xarakter xüsusiyyətlərində həyatsevərlik, gümrahlıq, yüksək enerji, sağlamdüşüncəli və səmimi, şəxsiyyətlərarası münasibətlərə sahib xüsusiyyətlərin üstünlük təşkil etməsinin sübutudur. Bütün bunlar təsdiq edir ki, xalçalarımız gözoxşayan zənginliyi ilə naxçıvanlıların psixoloji xüsusiyyətlərinin dərinliyini də özündə təcəssüm etdirir.*

**Çapay QULİYEV**
***Naxçıvan Müəllimlər İnstitutunun əməkdaşı, psixoloq***

## Türk Hava Yolları aviaşirkəti öz müştərilərini Naxçıvana səyahətə dəvət edir




Dünyanın məşhur aviaşirkəti olan Türk Hava Yolları rəsmi internet səhifəsində Naxçıvan istiqamətində həyata keçirilən uçuşlarla bağlı 3 dildə (türk, ingilis, rus) məlumat yerləşdirib. Məlumatda qeyd olunur ki, Türkiyə ilə həmsərhəd yeganə Azərbaycan torpağı olan Naxçıvan Muxtar Respublikası Araz çayının sahilində tarixi bir ərazidir. Burada Xan Sarayı, Xalça Muzeyi və digər muzeylər, Möminə xatın türbəsi və Nuh Peyğəmbərin məzarüstü türbəsi kimi son dərəcə əhəmiyyətli tarixi abidələr var.

180 metr dərinlikdə yerləşən Duzdağ Fizioterapiya Mərkəzi sovetlər dövründən etibarən astma-bronxit xəstələrinin müalicə məqsədilə ən çox müraciət etdiyi məkandır. Mineral bulaqları, narzanları və duz kimi zəngin təbii ehtiyatları olan Naxçıvan hər kəsi sağlam həyata çağırır.

Bundan başqa, Naxçıvan şəhərinin yaxınlığındakı tarixi abidələr və turizm obyektləri, otellər, hava limanından şəhərə getmək üçün taksi xidmətləri, marşrutlar haqqında da qısa məlumatlar verilib.

**Xəbərlər şöbəsi**

## Sərgi keçirilib

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan məktəbdənkənar tərbiyə müəssisələri tərəfindən məktəblilərin yay tətili günlərini səmərəli, yaddaqalan, xoş və daha maraqlı keçirmək məqsədilə təşkil olunan tədbirlər davam etdirilir. Belə tədbirlərin



başlıca məqsədi xüsusi istedada malik olan uşaq və gənclərin yaradıcılıq potensialının üzə çıxarılması, onların qabiliyyət və bacarıqlarının düzgün formalaşdırılması və istiqamətləndirilməsi, təkcə bilikli yox, həm də hər hansı sənətə yiyələnmiş insanların yetişdirilməsinə nail olmaqdır.

Növbəti tədbir isə dünən Naxçıvan Muxtar Respublikası və Culfa Rayon Texniki Yaradıcılıq mərkəzlərinin birgə təşkilatçılığı ilə əl işlərinin hazırlanması və sərginin keçirilməsi olub. Həmin məktəbdənkənar tərbiyə müəssisələrinin hər birinin 25 dərnək üzvünün iştirakı ilə keçirilən tədbir üçün ayrılan vaxt ərzində "Bacarıqlı əllər", "Kağız əl işləri", "Təyyarə-raket modelçiliyi", "Makrome", "Bədii tikmə", "Dizayn", "Təsviri estetika" və "Ağac üzərində oyma" dərnəklərinin üzvləri öz bacarıqlarına uyğun əl işləri hazırlayıblar. Səmərəli istirahət zamanı dərnək üzvlərində xoş təəssürat, gözəl əhval-ruhiyyə yaranıb, onlar əl işlərini böyük maraq və həvəslə tamamlayıblar.

Sərgi iştirakçıları vurğulayıblar ki, istirahətin və asudə vaxtın təşkili məktəblilərin istər fiziki, istərsə də psixi sağlamlığı nöqteyi-nəzərindən böyük məna kəsb edir və belə tədbirlərin təşkili əhəmiyyətlidir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Bir yay da ötür ömrümüzdən...



*Baharla payızın arasında körpü olan, öz hərarəti ilə bu iki sərin fəsli bir-birinə həmdəm edən mövsümdür yay. Yazda ağacların çiçəyinə vurulub, bu sevginin meyvələrini çiyinlərində daşıyıb payıza təhvil verən sevdalıdır yay. Yazda torpağa əkilənlərə su ilə birlikdə can verib süfrələri bollaşdıran, əkinçinin arzusunun gerçəyi, zəhmətinin bəhrəsidir yay. Toplanması payıza təsadüf edən meyvələrin, tərəvəzlərin yığımını gözləyən, götürəcəyi məhsulu realizə etməklə övladına nişan, toy etmək, cehiz almaq, him açıb bina salmaq, qarşıdan gələn qışa hazırlıq görmək istəyənlərin arzusudur yay.*

Yay həm də hicranların vüsal vaxtı, rayonlara, kəndlərə üz tutan şəhərlərimizdə yaşayanların ata-ana, qohum-əqrəba həsrətinin sonudur. Baba-nənələrindən uzaqda yaşayan uşaqların onların sevgisini duyduğu, tumarını gördüyü, nağılını dinlədiyi anlardır yay. Evlərimizin



qonaq-qarası, həyətlərimizin səsi-küyü, şaqraq gülüşüdür yay. Ağacların yazda barmaq boyda yarpaqlarını isti ağuşunda böyüdüb yolçuya, əkinçi-biçinçiyə çətir edəndir yay. Yaşıl rəngi, çiçək ətri, rəngarəng mənzərələri ilə yolçunu yoldan edib, bu çətirlərin altında samovar çayına, quzu kababına qonaq edəndir yay.

Bir təbiət gözəlidir bu fəsil. Bəzən istisindən zinhara gəlib gileyləndiyimiz yay olmasa, baharda torpaqdan ancaq boylanan yaşıl çəmən heç dizə qalxarmı? Mövsümboyu üç-dörd dəfə biçilən bu çəmənlərin, düzlərin otu ilə qışboyu bazarlarımızı bol südlü, qatıqlı, pendirli, şorlu, kərəli edən mal-qaranın ruzisidir yay. Yaylaqların sükutunu pozan qoyun-quzu mələşməsi, çobanların tütəkdə səsləndirdiyi nəğmədir yay. Eldən-elə qonaq gəlib Ulu Yaradanın təbiət bəxşişini paylaşanların qurduqları obadır yay. Ocaq çayı, ocaq yeməyi, təbiətin qoynunda açılan süfrədir yay. Dağların sinəsini, torpağın bağrını yarıb çağlayan, 38-40 dərəcə isti havada 1 dəqiqənin tamamınadək əlimizi saxlaya bilmədiyimiz buz bulaqlarımızdır yay. Dağlarımızın-dərələrimizin insanlara ruzi payı olan min adda, mir bir dadda bitkilərinin onlara ərməğan çağıdır yay. Bu mövsüm gözəl, təbiət möcüzəsi olan diyarımızın gəzməli-görməli yerlərinin "qapısının açarıdır". Uşaqların məktəb tətili, valideynlərinin məzuniyyət dövrü, onları birlikdə bu gözəllikləri duymağa səsləyən, istirahətə çağırışdır yay. Açın onunla "təbiətin qapılarını". Şahbuza gəlin, dağlarının başında qışı, sinəsində yazı, çəmənlərində yayı yaşayan Batabata qalxın. "Üzən ada" möcüzəsi, Zorbulağın həzin nəğməsidir yay. Bu əsrarəngiz havanı doyunca sinənizə çəkin. Güllərdən çələng hörün, saçlarınıza taxın. Çünki bir çələngdir yay. Sərin külələri ilə güllərin, çiçəklərin rayihəsini ciyərlərimizə dolduran sizə xoş anlar yaşadan andır yay. Dəniz səviyyəsindən 2000 metrdən yüksəkdə yerləşən Ağbulağa gəlin. Bu yüksəklikdən ətrafdakı cənnətməkanın seyri, Ağbulaq İstirahət Mərkəzində istirahətin ən gözəl dövrüdür yay. Ordubada üz tutun, xəfif küləyi ilə Pəzməri şəlaləsinin suyunu



üzünüzə çiləyən şeh, dörd mövsümlü Göygöldür yay. Bu doyumsuz gözəlliklərin fonunda gözlərinizin bəzəyi, ruhunuzun qidası, könlünüzün həmdəmidir yay. Xan Arazın nəğməsini dinləyin. Yay bəzən sevdalanmış Arazın pıçıltısı, bəzənsə kükrəyib coşmasıdır. Bəs Əlincə, Haçadağ? Bu dağların harmoniyası da yay sevdalısıdır. Çünki yay bu şiş, girintili-çıxıntılı dağların üzəri ilə sizləri tarixin qüruru Əlincəyə, təbiət ərməğanı Haçadağa rahatlıqla çatdıra və buradan gözəl mənzərələri qarşınızda aça bilir. Göz uzandıqca seyr edəcəyiniz, bir-birini əvəz edən gözəlliklər… Turistləri diyarımıza səsləyən, əsrarəngiz təbiət lövhələri, təbii məhsulları, zəngin mətbəxi ilə onları valeh edib, hər il istirahət üçün bu gözəl ünvanı – Naxçıvanı seçmələridir yay.

Günəşdən güc alıb dənizlərə, göllərə verdiyi hərarət ilə çimərlik dövrüdür yay. Uzunoba çimərliyi ilə insanlara sərin və mənalı istirahət yaşadan, hərarəti sularında qərq edəndir yay. Ürəkləri sərinlədən ləzzətli dondurmaların mövsümüdür yay. İndi diyarımızdakı onlarla kafelər çeşidli, dadına doyulmaz dondurmalarla qonaqlarını səsləyir. İstirahət, əyləncə mərkəzləri kimi ünvanlarda isti, elə isti olduğuna görə də yorucu günlərinin yorğunluğunu unutdurmağı da bacarandır yay…

İstisindən şikayətlənib, hər an bitməsini arzulayan bizlərin heç özümüzün də fərqində olmadığımız qədər sağlamlığımızdır yay. Qızmar şüaları ilə ətrafdakı virusları məhv edən, immunitetimizi artıran, orqanizmimizi möhkəmləndirən, bizi qarşıdan gələn payızın, qışın sazağına-soyuğuna tablaşmağa hazırlayan "həkimdir" yay. İstidir, bəli, amma mənalıdır, özünəməxsusdur.

Budur, bir yay da ötür ömrümüzdən… Xatirələrə rəssamı özü olan gözəl bir təbiət mənzərəsi həkk edən yay. Bu mənzərədə yaşılın bütün tonları bir-birini əvəz etdikcə digər rənglərin harmoniyası yaşılın gözəlliyini, cazibədarlığını bir qədər də üzə çıxarır. Təkrarsız bir təbiət lövhəsidir bu mənzərə. Yayın var olduğunu, yaşandığını və nəhayət, ömrümüzdən bir ilin bir fəslinin də ötdüyünü səciyyələndirən lövhə. Bu mənzərə həm də xatirələr toplusudur. Hər kəsin bir yay təəssüratı olan toplu. Vərəqləndikcə ömrün bu yayının nə anları var bu topluda…



*Budur, günbəgün, saatbasaat ömrümüzün bir yayının da ömrü başa çatmaqdadır. Artıq yayın qarşıdakı günləri ilə birlikdə payıza doğru yolçuluğa çıxırıq. Yayın imtahanı olan payıza. Bir azdan havanın yandırıcı istisi sərinliyə təslim olanda, payız küləkləri yayı qovub öz lövbərini təbiətin qoynunda açanda, yaşıla sarı rəng "hökmranlıq" edəndə ömrümüzdən bir yayın necə də sürətlə keçdiyinin fərqinə varacağıq. Nə etməli, ötməlidir fəsillər: ömrümüzə yeni payızları, qışları, baharları gətirmək üçün…*

✍ **Mətanət MƏMMƏDOVA**

*Naxçıvan Futbol Federasiyası (NFF) və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) təşkilatçılığı ilə muxtar respublikada "Məşqçilər üçün professionallıq təlimləri" mövzusunda seminar təşkil olunub. AFFA-nın məşqçiləri Əli Muradov və Zaur Məmmədov tərəfindən aparılan seminarda 14 məşqçi iştirak edib.*

*İdman*

## Futbol məşqçiləri üçün seminar



Seminarı giriş sözü ilə açan Naxçıvan Futbol Federasiyasının sədr müavini Sakit Rzayev qonaqlara məşqçilər, onların məşq prosesləri, eləcə də məşqlərin keçirildiyi məkanlar barədə məlumat verib.

Günün ilk yarısında AFFA-nın "Qızlar bacarır" adlı layihəsinə uyğun olaraq qadın futbolunu əhatə edən mövzular barədə məlumat verilib. Qızların futbola olan münasibəti, tapşırıqları qavrama qabiliyyətləri, oyun zəkası və düşüncələri ilə bağlı beynəlxalq sorğuların nəticələri təhlil olunaraq bununla bağlı fikir mübadiləsi aparılıb.

Sonra məşqçilərlə qızları və oğlanları daha səmərəli şəkildə məşq etdirmək, oyunçuların üzləşdikləri müxtəlif fiziki problemləri anlamaq kimi məsələlər müzakirə edilib.

Günün ikinci yarısında daha çox müzakirələr uşaq futbolu, məşqçilik və futbolçuların məşq prosesləri ilə bağlı olub. Diqqətə çatdırılıb ki, futbolçulara müxtəlif bacarıqlar öyrədilmir. Qeyd olunub ki, burada əsas məsələ bacarıqlı futbolçuları necə məşq etdirməkdir. Çünki oğlanların və qızların təfəkkür və qavrayışları bir-birindən fərqlidir. Buna görə də müasir futbolda qadınların fərqli şəkildə məşq etdirilməsi tələb olunur.

Seminar zamanı futbolçuları yaxşı məşq etdirmək və bacarıqlarının təkmilləşməsini görmək, qrupda liderlik imkanlarını mənimsəmək, daha gənc komanda üzvləri – oyunçular üçün nümunə olmaq məsələləri barədə fikirlər dinlənilib. Eyni zamanda futbolçuların düşünməsi, reaksiyaları, stress altında olması, həyat strategiyası kimi münasibətləri də müzakirə olunduqdan sonra seminar iştirakçıları arasında test tapşırıqları aparılıb.

Sonda seminarda iştirak edən məşqçilərə AFFA tərəfindən sertifikatlar təqdim edilib.

***Naxçıvan Futbol Federasiyasının mətbuat xidməti***

## Futbolun inkişafı üçün daha bir layihə Naxçıvanda olacaq

*Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) inzibati binasında aşağı yaş qruplarından ibarət Azərbaycan yığma komandalarının kordinatoru Miloş Velebit tərəfindən "Elit məşq" layihəsinin təqdimat tədbiri olub.*



Tədbir layihə çərçivəsində fəaliyyət göstərəcək məşqçilərlə yanaşı, AFFA rəsmiləri, Məşqçilər Komitəsinin üzvləri və milli komandaların məşqçilərinin iştirakı ilə keçirilib.

Təqdimat mərasiminə qatılan Naxçıvan Futbol Federasiyasının sədr müavini Sakit Rzayevin verdiyi məlumata əsasən uşaq futbolunun gələcək inkişafı üçün mühüm əhəmiyyət kəsb edən bu layihənin bir qolu da Naxçıvanda olacaq. Yəni artıq muxtar respublika üçün AFFA tərəfindən lisenziyalı elit məşq məntəqəsi ayrılıb.

2005, 2006, 2007 və 2008-ci illər təvəllüdlü futbolçulardan ibarət qruplarda aşağı yaş milli komandaların plan və proqramlarına uyğun məşqlər keçiriləcək. Layihənin məqsədi istedadlı futbolçuları üzə çıxararaq onları gələcəkdə müxtəlif yaş kateqoriyaları üzrə milli komandalarımızın heyətində çıxış edəcək səviyyədə formalaşdırmaqdır.

## Tennis üzrə yarış keçirilib

*Sədərək rayonunda sağlamlıq imkanları məhdud uşaqlar arasında "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında stolüstü tennis üzrə yarış keçirilib.*



Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Uşaq-Gənclər İdman Məktəbi, Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı Gənclər Birliyi və Paralimpiya Federasiyasının rayon bölməsinin birgə təşkil etdiyi yarış dairəvi sistem üzrə keçirilib.

12 məktəblinin iştirak etdiyi yarışın yekununda qaliblər diplom və hədiyyələrlə mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 567